**A.Ə.RƏCƏBOVA**
*dosent*

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 60)

# AZƏRBAYCAN DÖVLƏTİNİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ QAYIDIŞ DÖVRÜ

***Açar sözlər:*** *milli, mənəvi, dövlət, din, xalq*
***Ключевые слова:*** *национальное, нравственность, государство, религия, народ*
***Key words:*** *national, spiritual, state, religion, people.*

Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutmağı bacarmışdır. Uzun illər aparılan tədqiqatlar, araşdırmalar qədim köklərə malik Azərbaycanın bir çox adət-ənənəsini əsrlər boyu qoruyub saxladığını üzə çıxarır. Azərbaycanın milli dəyərləri min illər əvvəl formalaşan, bu günədək, demək olar ki, dəyişilməyən, itirilməyən dəyərlərdir. Bu dəyərlər vahid xalq olaraq formalaşmağımızda da əhəmiyyətli rola malik olmuşdur.

Milli-mənəvi dəyərlər və azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdəndir. Bu amillər milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsipləri asasında formalaşıb. Xalqımız əsrlər boyu qoruduğu, bəzən əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib. Bu, milli özünüdərkin formalaşmasına böyük kömək edib. Düzdür, tarix boyu bu sərvətimizə göz dikən yadellilər olub, amma bir millətin dəyəri onun qanında, genetikasındadır, o səbəbdən də milli-mənəvi dəyərlərimizi bizdən almaq cəhdləri həmişə boşa çıxıb.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkül və inkişafına müstəsna yer ayırdı. Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ümummilli lider, əsasən, 3 tərkib hissəni xüsusi qeyd edirdi: dil, din, adət-ənənə.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. “Milli-mənəvi dəyərlərini qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir”, – deyən Heydər Əliyev hər bir azərbaycanlının öz milli mənsubiyyətinə görə qürur hissi keçirməli olduğunu dilə gətirirdi. O bildirirdi ki, hər bir azərbaycanlı azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır.

Heydər Əliyev islamiyyətlə bağlı olan dini-mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. Buna misal olaraq 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi ulu öndərin dini-əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi.

Qeyd etmək vacibdir ki, qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini hər zaman ortaya qoyurdu. Onun milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi “Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir” bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm müdrik bir el ağsaqqalının münasibəti idi. “Biz öz

milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", – deyən ümummilli liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqımızın milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirirdi. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapmasında böyük rol oynamışdır.

Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən, İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq dəlillərdir. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən, Qurban Bayramının qeyd olunmasını rəsmiləşdirən ulu öndər demişdir: "Müsəlmanların böyük bir təntənə ilə, həmrəylik və qardaşlıq rəmzi ilə qeyd etdikləri Qurban Bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixin çətin dövrlərində belə Qurban Bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Ulu öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun büyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın maddi-mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daim inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə tərbiyələndirməkdir".

Ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam madəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda İslam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyələrin tərkib hissəsi kimi insanların hayatında mühüm rol oynamışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, milli adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli prinsipləri əsasında tərbiyə etməyi tövsiyyə edirdi. Bu baxımdan ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad tazahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəslə ötürmüşdür, milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli-əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixinin keşməkeşli mərhələlərində belə mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara al tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli (Novruz) və dini (Qurban, Ramazan) bayramlarını da qeyd etmişlər.

Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın dini bayramları dövlət səviyyəsində qeyd olunmağa başlanıb və milli-mənəvi dəyərlərimizin qorunması işinə dövlət tərəfindən ciddi qayğı göstərilməsi hayata keçirilmişdir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində ölkə konstitusiyası ilə yanaşı müqəddəs Qurani-Kərimə də əl basaraq dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, milli-mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi yuxarıda dediklərimizə əyani sübutdur.

Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir. Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən, İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin hayata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır.

Məsələn, Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasının vacibliyini vurğulayan ulu öndər Heydər Əliyev bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: “Müsəlmanlanın böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban Bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixin çətin dövrlərində belə, Qurban Bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir”.

Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də İslam dinidir. Xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində ötən müddətdə atılan ardıcıl addımlar tolerantlıq və multikulturalizm siyasətinə alternativin olmadığını sübuta yetirir.

Ümummilli lider Heydər Əliyevin dövlət-din münasibətlərində yürütdüyü siyasət Azərbaycanın ənənələrinə və xalqın zəngin keçmişinə söykənir, müasir dövrdə milli-mənəvi dəyərlərimizin səmərəliliyinə diqqət çəkir. Cəmiyyətdəki tolerantlıq və humanizm mühiti Heydər Əliyevin rasional siyasətinin nəticəsidir. Milli kimliyimizin formalaşmasında mühüm rol oynayan, xalqımızın mənəviyyatını zənginləşdirən Heydər Əliyevin İslam dininə münasibəti də özünəməxsus idi. İslamın insanpərvər və mütərəqqi bir din olduğunu vurğulayaraq, “Bizim dinimiz mütərəqqi bir dindir. İslam dini mütərəqqi olduğunu əsrlər boyu sübut edib, eyni zamanda İslam dininə tabe olan bütün insanlar üçün nə qədər mütərəqqi və dünyəvi olduğunu”, – deyib.

Qürurla deyə bilərik ki, bu gün ölkəmiz prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində tolerantlıq, multikulturalizm və dini maarifləndirmə mövzusunda regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların əsas məkanına çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində aparılan siyasət dünya ictimai rəyi tərəfindən diqqətlə izlənilir və təqdir olunur. Xalqımızın milli-mənəvi dəyərlərinin tərəqqisini

vurğulayan prezident İlham Əliyev gələcəyimizi zəngin tarixi keçmişə söykənən ənənələrimizlə müasir ideyaların sintezində görürdü. O, ölkəmizdə milli və dini dəyərlərin qorunması istiqamətində ardıcıl işlər aparır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: 1995.
2. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, №16, maddə 694.
3. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002, 232 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı: Çıraq, 2007, 400 s.
5. Heydər Əliyev: Müstəqilliyimiz əbədidir (çoxcildlik), Bakı: Şərq-Qərb, 2013, 752 s.
6. Azərbaycan Milli Ensiklopediyası, Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2007, 881 s.
7. Z.Bünyadov, Azərbaycan VI-IX əsrlərdə, Bakı: Şərq-Qərb, 2007.
8. www.president.az
9. www.anl.az
10. www.preslib.az

**А.А.Раджабова**

**Период возвращения Азербайджанского государства к национально-нравственным ценностям**

***Резюме***

В статье говорится об эффективности политики Азербайджанского государства Автор рассматривает эти понятия с морольной точки зренияБольшое место в статье уделяется рассмотрения удачной политики Азербайджанского правительства в области развития культуры, религии. Главная цель автора это улучшения нравственности,морали своего народа .В статье ещё раз автор отмечает о толерантности Азербайджанского государства. А также в статье раскрывается взаимоотнощения между другими народами и их религиями. В статье также рассматривается проблема человека, общества его духовной развитии.

**A.A.Rajabova**

**The period of the return of the Azerbaijani state to national and moral values**

***Summary***

The article talks about the effectiveness of the policy of the Azerbaijani state. The author examines these concepts from a moral point of view. A large place in the article is given to the consideration of the successful policy of the Azerbaijani government in the development of culture and religion. The main goal of the author is to improve the morality of his people. In the article, the author once again notes the tolerance of the Azerbaijani state. And also the article reveals the relationship between other peoples and their religions. The article also deals with the problem of man, society, his spiritual development.

*Rəyçi: dos. Ə.M.Abdiyeva*

*Redaksiyaya daxil olub: 16.05.2022*